AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# HƏRƏKƏTSİZLİK CİNAYƏT-HÜQUQİ KATEQORİYA KİMİ

İxtisas: 5611.01 – "Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ"

Elm sahəsi: Hüquq elmləri

İddiaçı: **Vüqar Anar oğlu Qədimov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Hüquq elmləri doktoru, professor
**Şəhla Tofiq qızı Səmədova**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Habil Surxay oğlu Qurbanov**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Vüqar Şəmistan oğlu Mansurov**

Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent
**Aydın Cəmil oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

________________

Dissertasiya şurasının elmi katibi: Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**

________________

Elmi seminarın sədri: Hüquq elmləri doktoru
**Fərdin Yaşar oğlu Xəlilov**

________________

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci il tarixdə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında hər kəsin doğulduğu andan etibarən toxunulmaz, pozulmaz və ayrılmaz hüquq və azadlıqları başlanğıc müddəa kimi təsbit edilmişdir. Bu baxımdan, şəxsiyyətin, cəmiyyətin və dövlətin ictimai-təhlükəli əməllərdən mühafizəsini təmin edən cinayət-hüquqi normaların müasir dövrün tələblərinə uyğun şəkildə davamlı olaraq təkmilləşdirilməsi zəruri xarakter daşıyır.

30 dekabr 1999-cu il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin əvvəlki məcəllələrdən əhəmiyyətli dərəcədə fərqlənməsi, eləcə də müxtəlif dövrlərdə məhkəmə-hüquq sistemində, xüsusilə də, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamına müvafiq olaraq ümumilikdə cəza siyasəti sahəsində aparılan sistemli islahatların göstəricisi kimi qiymətləndirilə bilər.

XXI əsrdə dünyada baş verən mürəkkəb siyasi və ictimai proseslər fonunda müxtəlif kateqoriyalara aid cinayətlər üzrə qeydə alınmış ictimai-təhlükəli əməllərin, həmçinin cinayət törətmiş şəxslərin sayında artım müşahidə olunmaqdadır. Məhz bu vəziyyət dövlətlərin cinayətkarlıqla mübarizə sahəsinə xüsusi diqqət yetirməsini zəruri edir. Təsadüfi deyildir ki, ictimai təhlükəsizliyin və ictimai qaydanın cinayətkar qəsdlərdən qorunması, eləcə də cinayətlərin qarşısının alınması dövlətin başlıca vəzifələri kimi müəyyən edilmişdir.

Bununla belə, mövcud cəza siyasətində formalaşan müsbət tendensiyalar hüquq-mühafizə orqanlarının fəaliyyətinin gücləndirilməsi, sosial-iqtisadi amillər, cəmiyyətin hüquqi maarifləndirilməsi və sair ilə şərtləndirilə bilər. Bu dinamikanın davamlılığı gələcək dövrdə aparılacaq hüquqi və institusional tədbirlərdən asılı olacaqdır. Güman edirik ki, 2024-cü ildə ölkədə qeydə alınmış cinayətlərin sayının azalması tendensiyası (təxminən 9,32%[1]) növbəti illərdə də davam edəcəkdir.

İctimai həyatda baş verən dəyişikliklər dövlətin hüquq sisteminin müasir tələblərə uyğunlaşdırılmasını zəruri edir. Qeyd etmək lazımdır ki, bu prosesin ən bariz şəkildə getdiyi sahələrdən biri də məhz cinayət-hüquq sahəsidir. Belə ki, həyat fəaliyyətinin mürəkkəbləşməsi ilə yanaşı fərdlərin yerinə yetirməli olduğu yeni öhdəliklər də meydana çıxır. Nəticə etibarilə, onların həmin öhdəliklərə zidd davranışları hərəkətsizlik ilə törədilən ictimai-təhlükəli əməllərə görə də məsuliyyət məsələsini aktuallaşdırır. Belə ki, qanuna və ya digər hüquqi əsaslara uyğun olaraq müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməməsi bəzən ayrı-ayrı şəxslər üçün ağır hüquqi məsuliyyətin yaranmasına səbəb olur. Cinayət Məcəlləsində (bundan sonra "CM") hərəkətsizlik ilə törədilən ictimai-təhlükəli əməllərin mövcudluğu həm nəzəri baxımından fikir ayrılıqlarına, həm də hüquqtətbiqetmədə tövsifi çətinliklərə səbəb olmaqla milli cinayət hüququnda hərəkətsizliyə və onun növlərinə düzgün cinayət-hüquqi qiymət verilməsini və kompleks elmi tədqiqatın aparılmasını şərtləndirir.

Tarixi inkişaf prosesini nəzərə aldıqda belə nəticəyə gəlmək mümkündür ki, ictimai münasibətlərin mürəkkəbləşməsi hüquq sistemlərinin də paralel şəkildə inkişafını zəruri edir. Bunun nəticəsində hərəkət, hərəkətsizlik və ya cinayət törətməkdən könüllü imtina və digər hüquqi anlayışlar formalaşaraq bir-birindən

---

[1] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi / Cinayətkarlıq və hüquqpozmalar. URL: https://www.stat.gov.az/source/crimes/

fərqləndirilmişdir. Cinayət hüquq nəzəriyyəsində hərəkətsizlik kateqoriyasına dair müzakirələrin başlanğıcı hələ XIX əsrin əvvəllərinə təsadüf edir. Zaman keçdikcə bu müzakirələr daha da intensivləşmiş və müasir dövrdə hələ də davam etməkdədir. Baxmayaraq ki, hərəkətsizlik ilə törədilən cinayətlərə dair nəzəri yanaşmalar əsasən son iki əsrdə formalaşmışdır, bu cür əməllərə həm Azərbaycanın, həm də digər ölkələrin hüquq tarixində hələ qədim dövrlərdən rast gəlinməkdədir. Bu baxımdan, "cinayətkar hərəkətsizlik" və "hərəkətsizlik ilə törədilən cinayətlər" anlayışlarına dair nəzəri müzakirələr nisbətən yeni olsa da, cinayətkar hərəkətsizlikdən irəli gələn hüquqi məsuliyyət və bu əməllərin cinayət hüququ çərçivəsində kriminallaşdırılması kifayət qədər qədim tarixə malikdir[2]. Odur ki, müxtəlif dövrlərdə tarixi-siyasi şəraitdən asılı olaraq Azərbaycan ərazisində cinayət sayılan əməllərin dairəsi, onların tərkib əlamətləri fərqlənmiş, xüsusilə də, hərəkətsizlik ilə törədilən cinayətlərə görə məsuliyyət məsələsi konkret dövrün tələblərinə uyğun olaraq kriminallaşdırılmışdır.

CM-in Xüsusi hissəsində kriminallaşdırılmış ictimai-təhlükəli əməllər cinayət tərkibinin obyektiv cəhətinə görə ya aktiv davranış olan hərəkət, ya da passiv davranış olan hərəkətsizlik (və ya hər ikisi) ilə törədilə bilər. Odur ki, hərəkətsizlik cinayət hüquq elminin mühüm kateqoriyalarından biri hesab edilir. Bununla yanaşı, hərəkət ilə törədilən cinayətlərlə hərəkətsizlik ilə törədilən cinayətlər arasında cinayət-hüquqi baxımdan mühüm fərqlər mövcuddur.

Hüquqi baxımdan hərəkətsizlik dedikdə, öhdəlik (və ya vəzifə) kimi müəyyən edilmiş konkret bir hərəkətin şəxs tərəfindən yerinə yetirilməməsi, yəni edilməməsi başa düşülür. CM-də kriminallaşdırılmış ictimai-təhlükəli əməllərin əksəriyyəti cinayət tərkibinin obyektiv cəhətinə görə hərəkət ilə törədilsə də, müasir dövrdəki cinayətkarlığın bütün göstəricilərindəki ümumi artış

---

[2] Yurtlu, F. İhmali Suçlar. Ankara: Seçkin Yayıncılık, 2022. s.90

hərəkətsizlik ilə törədilən ictimai-təhlükəli əməllərin cinayət-hüquqi və kriminoloji baxımdan kompleks təhlilini labüd edir.

Digər tərəfdən, hərəkətsizlik ilə törədilən ictimai-təhlükəli əməllər CM-in bir sıra mühüm bölmələrində: "İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər", "Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər", "Hərbi xidmət əleyhinə olan cinayətlər" təsbit edilmişdir. Bu bölmələrdə nəzərdə tutulan cinayətlərin ictimai-təhlükəliliyinin xarakteri və dərəcəsi, habelə hərəkətsizlik ilə törədilən əməllərin cinayət hüququnun fundamental institutları ilə qarşılıqlı əlaqəsi nəzərə alındıqda, onların həm nəzəri, həm də praktiki baxımdan kompleks tədqiqi əhəmiyyətli hesab olunur.

Qeyd edilməlidir ki, hüquqi baxımdan hərəkətsizlik anlayışı təkcə cinayət-hüquqi və kriminoloji aspektdən məhdudlaşmır; o, eyni zamanda, konstitusiya hüququ, cəza-icra hüququ, mülki hüquq və digər hüquq sahələrində də hüquqi məzmun və əhəmiyyət kəsb edir. Məhz bu qeyd edilənlər cinayətkar hərəkətsizliyin hüququn müxtəlif sahələri arasında müqayisəli tədqiqini də şərtləndirmiş olur.

Hərəkətsizliklə törədilən cinayətlərin tədqiqinə azərbaycanlı hüquqşünas alimlərin ayrı-ayrı elmi əsərlərində yer verilsə də, hərəkətsizlik cinayət-hüquqi kateqoriya kimi onların bilavasitə tədqiqat predmetinə çevrilməmişdir. Dissertasiya işində azərbaycanlı alimlərdən F.Səməndərov, İ.Rəhimov, H.Qurbanov, Ş.Səmədova, İ.Vəliyev, S.Rzayeva, M.Bayramova və digərlərinin, eləcə də xarici alimlərdən N.Kunter, H.Hakeri, R.Erbaş, M.Urubjurov, A.Boyko, J.M.Sanşez, P.Robinson və digərlərinin elmi əsərləri təhlil olunmuş, onların elmi yanaşmalarına istinadlar edilmişdir. Lakin buna baxmayaraq, qeyd olunan müəlliflərin elmi əsərlərində cinayət tərkibinin obyektiv cəhətinin zəruri əlaməti kimi hərəkətsizliyin müstəqil cinayət-hüquqi kateqoriya kimi və milli qanunvericilik baxımından sistemli şəkildə araşdırılmaması, xüsusilə də elmi tədqiqatın obyekti və predmeti səviyyəsində təhlil edilməməsi bu mövzunun ayrıca işlənməsini şərtləndirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini cinayət tərkibinin obyektiv cəhətinin zəruri əlaməti kimi hərəkətsizlik, bu əməllər ilə mübarizə çərçivəsində cinayət-hüquqi və kriminoloji problemlər və bu problemlərin həllinə yönəlmiş təkliflər, hərəkətsizlik ilə törədilən cinayətlərin qəsd etdiyi ictimai münasibətlərin sistemi təşkil edir.

Dissertasiya işinin predmetinə cinayətkar hərəkətsizliyə dair CM-in Ümumi hissəsində təsbit olunan müddəalar, bu Məcəllənin Xüsusi hissəsində hərəkətsizliklə törədilən ictimai-təhlükəli əməllərin sistemi, habelə transmilli cinayət hüququnda və bəzi xarici ölkələrin cinayət qanunlarının müsbət təcrübəsində cinayətkar hərəkətsizliyə dair nəzərdə tutulan hüquqi məsuliyyət və tösvif məsələlərinə həsr olunan elmi-nəzəri araşdırmalar daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədini müstəqil cinayət-hüquqi kateqoriya kimi hərəkətsizliyi tədqiq etmək və hərəkətsizlik ilə törədilən cinayətlərə görə məsuliyyətin mövcud nəzəri və praktiki problemlərinin təhlilini apararaq milli cinayət qanunun bu sahədə təkmilləşdirilməsi və hərəkətsizlik ilə törədilən cinayətlərin qarşısının alınması istiqamətində müəyyən tövsiyələrin verilməsi təşkil edir.

CM-in həm Ümumi, həm də Xüsusi hissəsinin müvafiq normalarında hərəkətsizliyə dair müddəaların təsbit edilməsi, eləcə də hərəkətsizlik ilə törədilən cinayətlərin həm nəzəriyyədə, həm də təcrübədə özünəməxsus xüsusiyyətlərə malik olması hərəkətsizliyin cinayət-hüquqi kateqoriya kimi tədqiqinin qarşısında aşağıdakı vəzifələri müəyyən edir:

- cinayət-hüquqi və fəlsəfi kateqoriya kimi hərəkətsizliyin anlayışı və mahiyyətinin, habelə hərəkətsizlik ilə törədilən cinayətlərə görə məsuliyyət normalarının formalaşması və bu cinayətlərin təsbitinə dair qanunvericiliyin inkişaf tarixinin təhlili;
- hərəkətsizlik ilə törədilən cinayətlərin növ və təsnifatının tədqiqi;

- hərəkətsizlik ilə törədilən cinayət əməllərinin ictimai təhlükəliliyinin və cinayət qanunu ilə kriminallaşdırılmasının ilkin şərtlərinin təsviri;

- CM-in Xüsusi hissəsində hərəkətsizlik ilə törədilən cinayətlərin sistemi və bu cinayətlərin obyektiv və subyektiv əlamətlərinin təhlili;

- transmilli cinayətlərin sistemində, habelə bir sıra xarici ölkələrin cinayət qanunvericiliyində hərəkətsizlik ilə törədilən bəzi cinayətlərin spesifik xüsusiyyətlərinin araşdırılması;

- cinayət qanunvericiliyində hərəkətsizlik ilə təsbit olunan cinayət əməllərinə dair nəzəri və təcrübi tövsiyələrin əsaslandırılması və qanunvericiliyin təkmilləşdirilməsi;

- hərəkətsizlik ilə törədilən cinayətlərin kriminoloji xüsusiyyətlərinin təhlil edilməsi və bu cinayətlərin qarşısının alınması məqsədilə təkliflərin verilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın metodologiyası elmi biliklərin ümumi və xüsusi elmi metodlarına: mücərrəddən konkretə, məntiqi, tarixi, induksiya, deduksiya, analiz, sintez, müqayisəli təhlil metodlarına əsaslanır. Elmi tədqiqat işində həmçinin, xüsusi metodlardan da: müqayisəli hüquqi analiz, milli və xarici ölkələrin qanunvericiliyinin müqayisəli araşdırılması; müasir və tarixi normativ bazanın təhlil edilməsindən istifadə edilmişdir.

Tədqiqatın metodologiyasında xüsusi elmi metodlar sistemli-struktur, formal-məntiqi, linqvistik, tarixi-hüquqi, eləcə də digər metodlar əhəmiyyətli şəkildə tətbiq edilmişdir. Dissertasiya tədqiqatında təsbit edilən müddəalar Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikası Cinayət Məcəlləsinə, Azərbaycan Respublikası Cəzaların-İcrası Məcəlləsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinə, Ali Məhkəmənin və Konstitusiya Məhkəməsinin Plenum qərarlarına, milli və xarici ölkələrin məhkəmə təcrübəsinə və xarici ölkələrin cinayət qanunvericiliyinə, cinayət hüququ, kriminologiya, fəlsəfə, psixologiya sahəsində yazılan əsərlərə əsaslanır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Müstəqil cinayət-hüquqi kateqoriya kimi hərəkətsizlik ilə törədilən cinayətlərə görə CM-də məsuliyyətin əsaslarının dəqiq müəyyən edilməsi zəruri hesab edilir. Bununla əlaqədar, CM-də "Cinayətkar hərəkətsizlik" adlı 14-1-ci maddənin əlavə olunması təklif olunur. Bu təklif bir sıra xarici dövlətlərin cinayət qanunvericiliyinin (Məsələn, İspaniya Krallığının CM-in 11-ci maddəsi, Almaniya Federativ Respublikasının CM-in 13-cü maddəsi, Polşa Respublikasının CM-in 2-ci maddəsi və s.) müsbət təcrübəsinə əsaslanaraq verilmişdir:

- "14-1.1. Əməlin hərəkətsizlik ilə törədilməsi yalnız o halda cinayət məsuliyyətinə səbəb olur ki, şəxs qanuna və ya digər hüquqi əsaslara uyğun olaraq üzərinə düşən öhdəliyi yerinə yetirməsin, yəni ondan yayınsın, imtina etsin və ya onu lazımınca icra etməsin və ya belə hərəkətsizlik ictimai-təhlükəli nəticələrə səbəb olsun".

Həmçinin hesab edirik ki, qanunverici 14-1.2-ci maddə üzrə CM-in Xüsusi hissəsində hansı ictimai-təhlükəli əməllərin hərəkətsizlik ilə törədilə biləcəyini konkret şəkildə müəyyən etməsi məqsədəuyğun olardı.

2. Obyektiv cəhətdən yalnız hərəkətsizlik ilə törədilən cinayətlərlə bağlı cinayət hüquq nəzəriyyəsində mübahisəli hesab olunan məsələlərdən biri də bu cinayətlərin birgə icraçılar tərəfindən törədilməsinin mümkün olub-olmaması ilə bağlıdır. Hesab edirik ki, birgə icraçılar hərəkətsizlik ilə törədilən cinayətləri törədə bilərlər. Lakin bunun üçün iki və ya daha artıq şəxsin qanuna və ya digər hüquqi əsaslara uyğun olaraq eyni öhdəliyə malik olması və həmin şəxslərin bu öhdəliklərlə bağlı qəsdən birgə hərəkətsizliyi tələb olunur. Bununla əlaqədar CM-in 33-cü maddəsində aşağıdakı əlavəni təklif edirik:

- 33.2-1. Yalnız hərəkətsizliklə törədilən cinayətlərdə iki və ya daha artıq şəxs birgə icraçılıqla bağlı o halda cinayət məsuliyyətinə cəlb edilir ki, onlar qanuna və ya digər hüquqi əsaslara uyğun olaraq eyni öhdəliyə malik olsunlar və həmin şəxslər bu öhdəlikləri birgə

yerinə yetirməsinlər, yəni ondan yayınsınlar, imtina etsinlər və ya onu lazımınca icra etməsinlər və ya belə hərəkətsizlik ictimai-təhlükəli nəticələrə səbəb olsun.

Məsələn, CM-in 328-ci maddəsi üzrə bir qrup şəxs tərəfindən və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən əmri icra etməməni qeyd edə bilərik.

3. CM-də hərəkətsizlik ilə törədilən cinayətlərdə cinayət törətməkdən könüllü imtina institutunun tətbiqi təsbit edilsə də, qanunverici tərəfindən buna uyğun olaraq cinayət məsuliyyətini istisna edən qəti imtina halının hədləri dəqiq müəyyən edilməmişdir. Odur ki, CM-ə bu əlavəni təklif edirik:

- "30.2-1. Hərəkətsizlik ilə törədilən cinayətlərdə şəxs yalnız o halda cinayəti başa çatdırmaqdan könüllü olaraq qəti imtina etmiş hesab edilir ki, o, üzərinə düşən öhdəliyi yerinə yetirməməklə baş verə biləcək ictimai-təhlükəli nəticənin qarşısını almaq imkanına malik olduğunu dərk edərək, həmin nəticənin qarşısını almaq üçün zəruri və mümkün olan tədbirləri könüllü surətdə həyata keçirsin".

4. Obyektiv cəhətdən hərəkətsizlik ilə törədilən cinayətlərin bir çoxunda müvafiq öhdəliklərdən irəli gələrək cinayətin subyektinin xüsusi olması bir çox hallarda müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasının həmin subyektlərə münasibətdə tətbiqini şərtləndirir. Qeyd olunan cəza növünün azadlıqdan məhrum etmə növündə cəza ilə müqayisədə əsas cəza kimi hərəkətsizlik ilə törədilən bəzi cinayətlərə münasibətdə təsbit edilməsi onun tətbiq sahəsinin genişlənməsinə və inkişafına şərait yarada bilər. Təklif olunur ki: CM-in 143-cü (təhlükədə qoyma), 162.1-ci (əmək mühafizəsi qaydalarını pozma) 190.1-ci (qanuni sahibkarlıq fəaliyyətinə mane olma), 269-cu (gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi) maddələrində təsbit əməllərə görə alternativ quruluşda olan sanksiyalara əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası əlavə olunsun.

5. Cinayət hüquq nəzəriyyəsində mövcud olan yanaşmalara və bəzi xarici ölkələrin cinayət qanunvericiliyinin müsbət təcrübəsinə əsaslanaraq hesab edirik ki, həm hərəkət, həm də hərəkətsizlik ilə törədilən bəzi cinayətlərə görə müəyyən edilən məsuliyyət və ya təyin edilən cəza diferensiallaşdırılmalıdır. Belə ki, Almaniya Federativ Respublikasının CM-in 13.2-ci maddəsində təsbit edilir ki, cinayətin hərəkətsizlik ilə törədilməsi halında, cinayəti törədən şəxsə təyin ediləcək cəza azaldıla bilər. Türkiyə Respublikasının Türk Cəza Qanunun 83-cü maddəsinə əsasən müəyyən bir öhdəliyin yerinə yetirilməməsi nəticəsində ölümə səbəb olan şəxs barəsində əsas cəza kimi ömürlük azadlıqdan məhrum etmə əvəzinə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası təyin oluna bilər. Bununla yanaşı, cəzada heç bir güzəşt edilməyə də bilər. Oxşar yanaşma islam cinayət hüququnun Hənəfi məzhəbinin alimləri tərəfindən də qəbul edilir.

Nəzərə almalıyıq ki, cinayətkar hərəkət qadağan olunan davranışın törədilməsi olduğu halda, cinayətkar hərəkətsizlik qanuna və ya digər hüquqi əsaslara uyğun olaraq şəxsin üzərinə düşən öhdəliyini yerinə yetirməməsidir.

Bu əsasda Azərbaycan Respublikasının CM-in Ümumi hissəsinə aşağıdakı məzmunda 62-1-ci maddənin əlavə olunması təklif olunur:

- "Ağır nəticələrə səbəb olmayan hərəkətsizlik ilə törədilən cinayətə görə təyin edilən cəza müvafiq maddənin sanksiyasında müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən çox ola bilməz".

6. Obyektiv cəhətdən hərəkətsizlik ilə törədilən cinayətlər CM-in Xüsusi hissəsinin müxtəlif bölmə və fəsillərində nəzərdə tutulduğundan həmin cinayətlərin cinsi, növ və əsas bilavasitə obyektləri bir-birindən fərqlənir. Odur ki, mühafizə olunan ictimai münasibətlərin xüsusiyyətlərini və obyektiv cəhətin quruluşunu nəzərə aldıqda hesab edirik ki, hərəkətsizlik ilə törədilən bəzi cinayətlərin CM-in Xüsusi hissəsinin sistemində adı və yeri dəyişdirilməlidir:

- CM-in 196-cı (kreditor borclarını ödəməkdən qəsdən yayınma) maddənin yeri dəyişdirilərək 32-ci fəsilə (ədalət mühakiməsi əleyhinə cinayətlər) daxil edilməlidir. Belə ki, həmin maddə üzrə məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarına əsasən təşkilat rəhbərinin və ya vətəndaşın kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən xeyli miqdarda ziyan vurduqda qəsdən yayınması cinayət məsuliyyəti yaradır. Bu norma CM-in 306-cı maddəsinə (məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə) münasibətdə xüsusi norma kimi çıxış etsə də, mühafizə etdiyi ictimai münasibət məhkəmənin yekun aktının səmərəli icra edilməsi ilə bağlıdır.

- CM-in Xüsusi hissəsinin cinayətlərin cinsi və növ obyektinə görə qurulduğunu nəzərə aldıqda 269-cu maddə üzrə dəniz və ya sair su yolunda fəlakətə uğrayanlara gəmi kapitanı tərəfindən öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə olmadan kömək edə bildiyi halda kömək göstərməməsi əməli gəmi kapitanının dənizdə fəlakətə uğrayan hər bir şəxsə kömək göstərmək vəzifəsindən irəli gəlir. Odur ki, bu maddə üzrə mühafizə olunan əsas bilavasitə obyekt qismində hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları deyil, gəmi kapitanının kömək göstərməyə borclu olduğu fəlakətə uğrayanların həyat və sağlamlığı ilə bağlı ictimai münasibətlər çıxış edir. Bu əsasda edilən maddənin bu Məcəllənin "Şəxsiyyət əleyhinə olan cinayətlər" bölməsinin, "Həyat və sağlamlıq əleyhinə olan cinayətlər" fəslində təsbit edilməsini məqsədəmüvafiq hesab edirik.

7. Hərəkətsizliklə törədilən cinayətlərlə bağlı CM-in Xüsusi hissəsini təkmilləşdirmək məqsədilə aşağıdakıları təklif edirik:

- CM-in 103-1-ci maddəsinin dispozisyasında "digər hərəkətlərin" ifadəsi yerinə "digər əməllər" qeyd edilməsini məqsədəmüvafiq hesab edirik. Belə ki, maddənin dispozisyasında sadalanan alternativ əməllərdən "atmosferin, torpaq və ya su ehtiyatlarının zəhərlənməsi" əməlləri hərəkətsizlik ilə də törədilə bilər. Qarabağ münaqişəsi dövründə Ermənsitanın təbii

ehtiyatlarımıza yönələn cinayətkar əməllərini buna misal çəkə bilərik (Həkəri, Bərgüşad çaylarının çirkəndirilməsinin qarşısını almaması və s.).

- CM-in 303-cü maddəsində təsbit olunan "Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər" cinayətinin adı qeyri-dəqiqdir. Belə ki, maddə adında istifadə olunan "qanunsuz hərəkətlər" ifadəsi, 303.2-ci maddənin məzmununa, yəni "məhkəmənin hökmünə (qərarına) əsasən "müsadirə edilməli olan əmlakı gizlətmə və ya mənimsəmə, həmçinin əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qərarının) icra olunmasından başqa cür yayınma" əməlinə uyğun gəlmir.

- CM-də cinayət xəbər verməmə əməlinin (307.1-ci maddə) dispozisiyasında dəyişiklik edib, cinayət tərkibinə az ağır cinayətlər kateqoriyasının, habelə ağırlaşdırıcı tərkibə əməlin vəzifəli şəxs tərəfindən törədilməsi halının daxil edilməsini zəruri hesab edirik. Hesab edirik ki, bu yanaşma dövlətin ədalət mühakiməsi ilə bağlı maraqlarını daha təsirli şəkildə qoruyacaqdır. CM-in 307.1-ci maddədə məsuliyyəti istisna edən "Qeyd" hissədə "qanunvericiliklə dairəsi müəyyən edilmiş "digər yaxın qohumları" ifadəsinin qüsurlu olduğu qənaətindəyik. Hesab edirik ki, bu şəxslərin dairəsi qiymətləndirici anlayış olaraq "yaxınlar" və digər şəxslər ifadəsi ilə müəyyən edilməlidir.

- Hərəkətsizlik ilə törədilən cinayətlərin qəsd etdiyi ictimai münasibətlərin müxtəlifliyini nəzərə alaraq, onların təsbit olunduğu bəzi cinayət tərkiblərində stimullaşdırıcı cinayət-hüquq norması kimi cinayət məsuliyyətindən azad etmənin xüsusi şərtlərinin təsbit edilməsini zəruri hesab edirik. Bu əsasda dispozisiyasının da təkmilləşdirilməsinə ehtiyac olduğunu zəruri hesab etdiyimiz Cinayət Məcəlləsinin 321-ci maddəsinin "Qeyd" hissəsinə aşağıdakı məzmunda əlavə təklif olunur:

"Ağır şərait zəminində bu Məcəllənin 321.1-ci maddəsində nəzərdə tutulmuş əməli cari çağırış dövründə ilk dəfə törətmiş şəxs

cinayət məsuliyyətindən azad edilə bilər".

- CM-in 346-cı maddəsində "əsirlikdə olan hərbi qulluqçunun cinayətkar hərəkətləri" adı ilə kriminallaşdırılan cinayət əməlinin adlandırılması da qüsurlu hesab edilə bilər. Həmin maddənin təhlilindən aydın olur ki, bu əməl həm hərəkətlə, həm də hərəkətsizliklə törədilə bilər (əsirlikdə olan hərbi qulluqçunun başqa hərbi əsirlərə qarşı zorakılıq etməsi və ya onlarla amansızcasına rəftar etməsi). Bu əsasda hesab edirik ki, maddənin adı daha aydın ifadə edərək "əsirlikdə olan hərbi qulluqçunun cinayət əməlləri" kimi dəyişdirilməlidir.

8. Hərəkətsizliklə törədilən cinayətlərin müstəqil kateqoriya kimi statistik qeydiyyatının aparılması vacibdir. Qeyd etmək lazımdır ki, hazırkı statistik göstəricilər, əsasən, aktiv hərəkət ilə törədilən cinayətləri əhatə edir və nəticədə hərəkətsizlik ilə törədilən cinayətlər ümumi kriminal mənzərədə görünməz qalır. Bu isə hüquqi qiymətləndirmədə cinayətkarlığın əsl strukturunun təhrif olunmasına səbəb olur. Belə cinayətlərin statistik qeydiyyatının aparılması, bu sahədə latent cinayətkarlığın real miqyasını qiymətləndirməyə, kriminoloji tədqiqatların dərinləşdirilməsinə və hüquq-mühafizə orqanlarının profilaktik fəaliyyətinin daha səmərəli planlaşdırılmasına şərait yaradacaqdır.

**Tədqiqatın elmi yeniliyi.** Obyektiv cəhətdən hərəkətsizliklə törədilən cinayətlər haqqında Obyektiv cəhətdən hərəkətsizliklə törədilən cinayətlər haqqında Azərbaycan Respublikasının, habelə xarici ölkələrin elmi-hüquqi mühitində formalaşan nəzəri-praktiki materiallara əsaslanaraq:

- Azərbaycan Respublikasının CM-in Ümumi və Xüsusi hissələrində hərəkətsizlik kateqoriyasının cinayət-hüquq normalarında təsbiti ilə əlaqədar problemlər təhlil edilmişdir;
- cinayət hüququ nəzəriyyəsində obyektiv cəhətdən hərəkətsizlik ilə törədilən ictimai təhlükəli əməllərə görə cinayət məsuliyyətinin yaranması ilə bağlı irəli sürülmüş nəzəri yanaşmalar ümumiləşdirilmiş və sistemləşdirilmişdir;

- xarici ölkələrin cinayət qanunvericiliyinin müsbət təcrübəsində uyğun olaraq obyektiv cəhətdən hərəkətsizlik ilə törədilən cinayətlərin təsbit edilmə xüsusiyyətləri təhlil edilmişdir;

- hərəkətsizliklə törədilən cinayətlərin kriminoloji təhlili əsasında cinayətkar hərəkətsizliyin səbəbləri və şərtləri, qarşısının alınması məsələləri araşdırılmışdır.

Tədqiqat işində cinayət tərkibinin obyektiv cəhətinə görə hərəkətsizliyin anlayışı və onun mahiyyəti geniş şəkildə araşdırılmış, hüquqi və kriminoloji aspektlərdən təhlil edilmişdir. Bu çərçivədə, hərəkətsizliklə törədilən cinayətlərin müxtəlif qruplar üzrə təsnifatı aparılmış, onların hüquqi təbiəti, məsuliyyətin əsasları müəyyən edilmişdir. Bundan əlavə, bu cinayətlərin kriminallaşdırılma xüsusiyyətləri ətraflı şəkildə tədqiq olunmuş, onların ictimai təhlükəlilik dərəcəsi, hüquqi əsaslandırılması və mövcud qanunvericilikdəki yerinə dair analitik yanaşma təqdim edilmişdir. Tədqiqat çərçivəsində aparılan təhlillər və əldə edilən elmi nəticələr cinayət qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində milli qanunvericiliyə konkret tövsiyələrin irəli sürülməsinə şərait yaratmışdır.

Bu tövsiyələr, həm hüquq tətbiqetmə praktikasının daha effektiv qurulmasına, həm də normativ bazanın beynəlxalq təcrübəyə uyğun şəkildə inkişaf etdirilməsinə töhfə vermək məqsədini daşıyır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti milli cinayət qanununda hərəkətsizliklə bağlı ümumi müddəaların qarşılıqlı şəkildə təkmilləşdirilməsinə yönəlmişdir. Bu kontekstdə, hərəkətsizlik ilə törədilən cinayətlərə görə məsuliyyətin əsasları, onların tövsifi xüsusiyyətləri araşdırılmış, həmçinin bu cinayətlərə dair bir sıra xarici ölkələrin cinayət qanunvericiliyinin müqayisəli təhlili aparılmışdır. Bu yanaşma elmi mühakimə və əldə edilən nəticələr əsasında milli cinayət qanununun daha da inkişaf etdirilməsi üçün hüquqi imkanların yaradılmasına töhfə vermək məqsədi daşıyır.

Dissertasiya işində hərəkətsizlik ilə törədilən cinayətlərin obyektiv elementləri, xüsusilə də, obyektiv cəhəti, həmçinin onların hərəkətlə törədilən cinayətlərdən fərqləndirilməsi ətraflı təhlil edilmişdir. Bu çərçivədə, hərəkətsizliyin anlayışı, mahiyyəti, hərəkətsizliyə görə cinayət-hüquqi məsuliyyətin şərtləri, onnu hüquqi xarakteristikası və təsnifatı araşdırılmış, cinayət qanununda mövcud olan problemlər və onların həlli yolları və CM-in Xüsusi hissəsində əsas cinayət tərkibləri üzrə yalnız hərəkət ilə, yalnız hərkətsizlik ilə, yaxud həm hərəkət, həm də hərəkətsizlik ilə törədilən əməllərin statistik göstəriciləri müəyyən edilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, dissertasiya işində irəli sürülən elmi mülahizə, nəticə və müddəalardan qanunvericiliyin təkmilləşdirilməsində, cinayətlərin tövsifində məhkəmə və istintaq təcrübəsində, cinayətkar hərəkətsizliyin qarşısının alınması məsələlərində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin məzmunu və nəticələri müxtəlif elmi məcmuələrdə 3-ü xaricdə (onlardan 2-si beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərində) olmaqla 13 elmi əsəri (9 elmi məqalə və 4 konfrans materialı) dərc olunmuşdur. Həmçinin tədqiqat işində irəli sürülən elmi müddəalar beynəlxalq konfranslarda, həmçinin Bakı Dövlət Universitetinin Hüquq fakültəsində elmi seminarlarda və ilkin müzakirədə irəli sürülmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanln işarə ilə ümumi həcmi.** Dissertasiya işi mətndəki istisnalar (boşluq, ədəbiyyat siyahısı) nəzərə alınmaqla, ümumilikdə 256.719 işarə təşkil edir: "Giriş" 23.323, "I Fəsil" 57.551, "II Fəsil" 84.155, "III Fəsil" 56.922, "IV Fəsil" 22.582, "Nəticə" 10.996 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya işinin mözvusunun aktuallığı və əhəmiyyəti əsaslandırılır, həmçinin onun elmi araşdırılma dərəcəsi təhlil edilir, tədqiqatın predmeti, məqsəd və vəzifələri, metodları müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti vurğulanır.

Dissertasiya işinin **"Cinayət tərkibinin obyektiv cəhətinin əlaməti kimi hərəkətsizlik və onun əsas xarakterik xüsusiyyətləri"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir.

**"Hərəkətsizliyin anlayışı, mahiyyəti və ictimai təhlükəliliyi"** adlı birinci paraqrafda "hərəkətsizlik" kateqoriyası kompleks təhlil edilmiş, onun fəlsəfi anlayışına diqqət yetirimiş, ardınca isə ümumhüquqi mahiyyətinə və milli cinayət hüququnda hərəkətsizlik kateqoriyasına dair mülahizələrin inkişafına nəzər salınmışdır. Burada qeyd edilənlərlə bağlı diqqət çəkən məqamlardan aşağıdakıları qeyd edə bilərik:

Fəlsəfi fikrin inkişaf tarixinə ümumi nəzər saldıqda aydın olur ki, hərəkətsizlik (sükunət) ayrı bir kateqoriya kimi deyil, hərəkətin içində nəzərdən keçirilir. Yəni, sükunət (hərəkətsizlik) əslində hərəkətin müəyyən bir formasıdır və nisbi sabit xarakterə malikdir[3].

Fəlsəfi baxışlardan fərqli olaraq ümumhüquqi kontekstdə hərəkət və hərəkətsizlik iki ayrı müstəqil kateqoriya kimi qiymətləndirilir. Belə ki, cinayət hüquq nəzəriyyəsində geniş qəbul olunmuş yanaşmaya görə hərəkət ontoloji xarakter daşıdığı halda, hərəkətsizlik bu xüsusiyyətdən məhrumdur. Yəni, bu baxımdan, hər bir hərəkətsizlik halı normativ qiymətləndirməyə ehtiyac duyur. Çünki hərəkətsizlik sadəcə müəyyən bir hərəkətin edilməməsi deyil, hüquqi baxımdan edilməli olan, yəni qanunla tələb edilən konkret bir hərəkətin yerinə yetirilməməsidir. Başqa sözlə, hərəkətsizlik göstəriş

---

[3] Qədimov V.A. Obyektiv cəhətin zəruri əlaməti kimi hərəkətsizlik və onun mahiyyəti. Bakı, Qanun №8 (358), 2024, s.71

xarakterli norma ilə müəyyən olunmuş davranış tələbinin yerinə yetirilməməsi kimi təzahür edir.

Real davranış kimi qiymətləndirilən hərəkətdən fərqli olaraq, hərəkətsizliyi müxtəlif aspektlərdən izah etməyə çalışan müəlliflər arasında bir sıra nəzəri yanaşmalar mövcuddur.

Müəlliflərdən mərhum prof. F.Y.Səməndərov hərəkətsizliyin anlayışı ilə bağlı qeyd edirdi ki, "*hərəkətsizlik özü başlı-başına heç bir şeyi ifadə etmir və yalnız hüquqi və sosioloji baxımdan qiymətləndirildikdə ictimai münasibətlər sistemində öz funksiyasını yerinə yetirə bilər*[4]". Həmçinin mərhum prof. N.Kunter hərəkətlə hərəkətsizliyi fərqləndirərkən qeyd edir ki, "*cinayətkar hərəkət qadağalara, cinayətkar hərəkətsizlik isə göstərişlərə riayət etməməkdir*[5]".

Hərəkətsizlik ilə törədilən cinayətlərin ictimai-təhlükəliliyinin xarakteri və dərəcəsini, həmçinin bu əməllərin özünəməxsus xüsusiyyətlərini nəzərə aldıqda cinayətkar hərəkətsizlik ilə törədilən cinayətlərə görə məsuliyyətin əsaslarına leqal anlayışın verilməsi xüsusi əhəmiyyət kəsb edir və bu təkliflə əlaqədar CM-nə 14-1-ci maddənin əlavə olunması əsaslandırılır.

Hərəkətsizliklə törədilən cinayətlərin ictimai təhlükəliliyini təhlil etmək üçün cinayət hüququnda bu əməllərə görə məsuliyyət məsələsinin inkişaf tarixinə də nəzər salmaq vacibdir. Tədqiqat işində hərəkətsizlik ilə törədilən cinayətlər Azərbaycanın cinayət hüququ tarixi şərti olaraq bir neçə dövrə bölünərək təhlil edilmişdir: Qədim dövr (e.ə–VII əsr); İslam hüququ dövrü (VIII-XVIII); Müstəmləkə dövrü (XIX əsrdən 1918-ci ilə qədər), Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1918-1920), Sovetlər dövrü (1920-1991) və Müstəqillik dövrü (1991–h.h)

İslam hüququnu araşdırılarkən müəyyən edilmişdir ki, hələ ilk vaxtlardan bu hüquqda hərəkətsizlik "yoxluq" kimi qəbul edilməmiş,

---

[4] Səməndərov, F.Y. Cinayət hüququ Ümumi hissə. Dərslik. Bakı: Hüquq Yayın evi, 2023. s.161

[5] Kunter, N. Suçun maddi unsurları nazariyyesi. 2. Baskı, İstanbul: Derr, 2024. s.53

o, dinin tələbində vacib olanın edilməməsi və cəzalandırılma üçün əsas kimi qiymətləndirilmişdir. Müasir islam hüququnun biliciləri isə hərəkətsizliklə törədilən cinayətlərin sırasına ictimai kömək göstərməmə, şahidlikdən yayınma, cihaddan (müqəddəs müharibədən) boyun qaçırma və s. aid edirlər.

Hərəkətsizlik ilə törədilən cinayətlərin cəzalandırılmasında Hənəfi məzhəbindən olan alimlər maraqlı bir mövqe ilə çıxış edir. Onlara görə hərəkətsizlik ilə hərəkət arasında mahiyyətcə fərq olduğundan, bu iki davranışdan irəli gələn eyni hüquqi nəticə baş versə belə, onlara eyni cəza tətbiq edilməməlidir[6]. Başqa sözlə desək, kriminal nəticə hərəkətsizlik ilə törədildikdə, aktiv davranışla (hərəkətlə) müqayisədə bu əmələ görə daha yüngül cəza tətbiq olunmalıdır.

Birinci fəslin **"Cinayətkar hərəkətsizliyin əlamətləri, formaları və təsnifatı"** adlanan ikinci paraqrafında cinayətkar hərəkətsizliyin xarakterik xüsusiyyətləri təhlil edilmiş və aşağıdakı müddəaların qeyd edilməsi zəruri sayılmışdır:

Cinayət qanunvericiliyində ictimai-təhlükəli əmələ dair ümumi anlayışa yer verilməsə də, onun iki əsas forması ictimai təhlükəli hərəkət və ictimai təhlükəli hərəkətsizlik dəqiq şəkildə göstərilmiş, ancaq hərəkətsizliyin bilavasitə hansı əlamətlərə malik olması qanunverici tərəfindən müəyyən edilməmişdir.

Hərəkətsizlik kateqoriyası CM-in Ümumi hissəsinin əksər institut və maddələrində cinayətkar davranışın (əməlin) təzahür forması kimi müəyyən edilmişdir. Belə ki, bu Məcəllənin Ümumi hissəsinin 13, 14, 15, 17, 21, 24, 25, 26, 27, 29, 39-cu maddələrində hərəkətsizlik məhz ictimai-təhlükəli əməlin zahiri tərəfi kimi müəyyən edilmişdir.

CM-in Ümumi hissəsində cinayətkar davranışın növləri kimi hərəkət və ya hərəkətsizliyə görə məsuliyyətin əsaslarına konkret anlayış verilmədiyi üçün CM-in Xüsusi hissəsində qanunvericinin hansı əməllərin hərəkət, hansı əməllərin hərəkətsizlik və ya hər iki

---

[6] Avcı, M. Osmanlı ceza hukuku (Genel Hükümler). Ankara: Adalet, 2018. s.57

formada törədilməsini müəyyən etməsi təcrübədə suallar doğurur. Bu problem özlüyündə hüquqi müəyyənlik prinspinə uyğun gəlməyən bir amildir.

Cinayət qanununda hərəkətsizliklə törədilən cinayətlər say baxımından hərəkətlə törədilən cinayətlərdən əhəmiyyətli dərəcədə azdır. Bununla belə, ictimai təhlükəli əməllərin zahiri cəhətdən törədilməsi üç əsas qrup üzrə təsnif edilə bilər:

- cinayət qanunu ilə qadağan olunmuş ictimai-təhlükəli əməl yalnız hərəkətlə törədilir;
- cinayət qanunu ilə qadağan olunmuş ictimai-təhlükəli əməl yalnız hərəkətsizlik ilə törədilir;
- cinayət qanunu ilə qadağan olunmuş ictimai-təhlükəli əməl həm hərəkət, həm də hərəkətsizlik ilə törədilir[7].

Odur ki, cinayət hüquq nəzəriyyəsində cinayətkar davranış da iki qrup üzrə təsnif edilə bilər:

- yalnız (hərəkət və ya) hərəkətsizlik ilə törədilən ictimai-təhlükəli əməllər (sadə cinayətkar davranış),
- həm hərəkət, həm də hərəkətsizliklə törədilən ictimai-təhlükəli əməllər (mürəkkəb cinayətkar davranış).

Sadə cinayətkar davranışda hərəkətsizlik özü də iki qrupda təsnif edilə bilər:

- passiv formada təzahür edən hərəkətsizlik,
- aktiv formada təzahür edən hərəkətsizlik.

Həmçinin, hərəkətsizliklə törədilən cinayətlər müxtəlif əsaslara görə bir neçə təsnifata da ayrılmışdır. Bunlardan biri də cinayət tərkibinin quruluşuna görə "təmiz" və "qarışıq" hərəkətsizlikdir: təmiz hərəkətsizlik formal tərkibli cinayətlər, qarışıq hərəkətsizlik isə maddi tərkibli cinayətlər üzrə məsuliyyətin yaranmasına səbəb olur.

**"Hərəkətsizlik ilə törədilən cinayətlərə görə məsuliyyətin əsasları"** adlı ikinci fəsil iki paraqrafdan ibarətdir.

---

[7] Qədimov V.A. Obyektiv cəhətin zəruri əlaməti kimi hərkətsizlik və onun mahiyyəti. Bakı, Qanun № 8 (358), 2024, s.70

**"Cinayət hüququnda hərəkətsizliyə dair ümumi müddəalar"** adlanan birinci paraqrafda hərəkətsizlik ilə bağlı ümumi müddəalar təhlil edilərkən onlara cinayət-hüquqi məsuliyyət və cinayət tərkibi konsepsiyaları daxilində nəzər salınmışdır.

Hərəkətsizlik yalnız o halda cinayət məsuliyyətinə (məcburiyyət tədbirlərinə) səbəb olur ki, şəxs həmin şəraitdə tələb olunan hərəkəti etmək imkanına malik olsun. Sadəcə olaraq hərəkətsizlik faktını müəyyən etmək kifayət etmir. Belə ki, əgər şəxs obyektiv səbəblərə görə tələb olunan hərəkəti etmək imkanına malik deyildirsə, bu halda onun hərəkətsizliyi şəxsin iradəsinin ifadəsi yox, qarşısıalınmaz qüvvələrin təsirinin təzahürüdür. Bu halda şəxs cinayət məsuliyyəti istisna olunur, çünki onun əməlində cinayət tərkibi mövcud deyildir.

Cinayətkar hərəkətsizliklə törədilən əməllərin tövsifi mürəkkəb prosesdir. Çünki bu halda cinayət tərkibinin mövcudluğunu müəyyən etmək üçün yalnız maddi nəticənin deyil, həm də hüquqi öhdəliklərin və onların pozulmasının araşdırılması tələb olunur.

Odur ki, cinayət-hüquq nəzəriyyəsində hərəkətsizliyin cinayət-hüquqi məsuliyyət yaratması ilə bağlı bir çox hüquqi əsaslar təsnif edilmişdir. Müəlliflərdən dosent S.N.Rzayeva bu təsnifata aşağıdakıları daxil edir: *"Konstitusiya və digər normativ-hüquqi aktlardan irəli gələn birbaşa göstərişlər; müqavilədən irəli gələn öhdəliklər; şəxsin xidməti vəzifə və ya peşə fəaliyyəti ilə bağlı yaranan öhdəliyi; müəyyən hərəkəti etmək öhdəliyinin şəxsin konkret hərəkətlərinin nəticəsindən yaranması (təhlükə məsuliyyəti[8])"*.

Tədqiqat işinin bu hissəsində CM-in Ümumi hissəsinin 6-cı (Başa çatmayan cinayət) və 7-ci (Cinayətdə iştirakçılıq) fəsillərində hərəkətsizlik kateqoriyasının mövcud olub-olmaması ilə bağlı nəzəri yanaşmalar təhlil edilmiş və ümumiləşdirilmişdir.

Beləki müəyyən olunmuşdur ki, CM-in 28-ci maddəsi üzrə cinayətə hazırlığa dair verilən müddəalarda sanki cinayətə hazırlıq yalnız hərəkətlə törədilən cinayətlərə aid edilir. Qeyd edilən maddədə

---

[8] Rzayeva, S.N. İctimai-təhlükəli əməl // Bakı: Polis Akademiyasının Elmi Hüquq Jurnalı, 2019. № 3, s.7

cinayətə hazırlığa anlayış verilərkən, cümlənin sonu "belə əməllər cinayətə hazırlıq hesab olunur" ilə yekunlaşır. Əksər hallarda terminoloji olaraq "əməl" sözündən istifadə edən qanunverici onun yanında mötərizə ilə "hərəkət və ya hərəkətsizlik" teminlərinə yer versə də, burada ondan istifadə etməmişdir.

Hesab edirik ki, cinayətə hazırlıq başa çatmayan cinayətin mərhələsi kimi hərəkətsizliklə törədilən cinayətlərdə də mövcuddur. Hərəkətsizliklə törədilən cinayətdə hazırlığa CM-in 321-ci maddəsini misal göstərə bilərik: Belə ki, şəxs qeyd edilən maddə üzrə hərbi xidmət keçməkdən boyun qaçırmaq üçün saxta sənədlər hazırlayırsa, bu zaman cinayətə hazırlıqdan söhbət gedə bilər. Ancaq qeyd edilən əməlin cinayət məsuliyyətinə səbəb olub-olmayacağı artıq cinayətə hazırlıq insitutunun cinayət məsuliyyəti şərti ilə əlaqəlidir.

Cinayət Məcəlləsində hərəkətsizliklə törədilən ictimai-təhlükəli əməllərin birgə icraçılığa görə məsuliyyət yaradıb-yaratmaması məsələsi də nəzəriyyədə birmənalı qəbul edilmir. Hərəkətsizliklə törədilən cinayətlərdə nəzəri olaraq birgə icraçılıq mümkün hesab olunur, lakin bunun üçün iki və daha artıq şəxsin müvafiq hüquqi vəzifə daşıması və həmin şəxslərin bu vəzifələri yerinə yetirməməsi başqa sözlə, hərəkətsizlik etməsi vacib şərtdir. Əgər bu şəxslər arasında əvvəlcədən razılaşdırılmış qarşılıqlı fəaliyyət və ya cinayətin birgə törədilməsinə yönəlmiş iradə birliyi yoxdursa, bu halda artıq birgə icraçılıqdan deyil, hər bir şəxsin digəri ilə əlaqəsi olmadan eyni cinayət əməlini müstəqil şəkildə törətməsi, yəni paralel icraçılıq (yanaşı icraçılıq) halından bəhs edilməlidir. Buna uyğun olaraq CM-ə 33.2-1-ci maddəsinin əlavə edilməsi əsaslandırılmışdır.

İkinci fəslin "**Cinayət qanununda hərəkətsizliklə törədilən cinayətlərin sistemi**" adlı ikinci paraqrafında CM-in Xüsusi hissəsinin müxtəlif bölmə və fəsillərində hərəkətsizliklə törədilən cinayətlər cinsi və növ obyektlərinə uyğun olaraq pərakəndə şəkildə təsbit olunmuşdur.

Tədqiqat üçün empirik materialları toplama prosesində bizim sorğumuza verilən rəsmi cavabdan məlum olmuşdur ki, ölkəmizdə

hüquqpozmalar üzrə hərəkətsizliklə törədilən cinayətlərin statistik göstəriciləri müşahidəsi aparılan göstəricilər sırasına daxil edilməmişdir.

CM-in Xüsusi hissəsinin sistemində hərəkətsizliklə törədilən cinayətlərlə bağlı problemli məqam sadə dispozisiyalar və natamam təsviri dispozisyalar ilə əlaqədar yaranır. Hesab edirik ki, bu hal cinayət hüququnda hüquqi müəyyənlik prinsipi baxımından qeyri-məqbul sayıla bilər. Fikrimizcə, qanunverici şəxsiyyət əleyhinə cinayətlərin sistemində həyat və sağlamlıq əleyhinə olan cinayətlərin sırasında qəsdən adam öldürmə, sağlamlığa zərər vurma (ağır, az ağır, yüngül) kimi zorakı cinayətlərə görə məsuliyyəti bu əməllərin hərəkət və ya hərəktsizliklə törədilməsindən asılı olaraq ayrıca normalarda fərqləndirilməlidir. Bu halda həyat və sağlamlıq əleyhinə qəsdən hərəkətlə törədilən cinayət tərkiblərində subyektin aqressiv davranışı cinayət məsuliyyətinin diferensiasiyasının meyarı kimi çıxış edəcək.

CM-in Xüsusi hissəsinin müxtəlif bölmə və fəsillərində təsbit edilən hərəkətsizlik törədilən cinayətlərin sisteminə daxil olan əməllərə münasibətdə bəzi maddələr üzrə qanunverici dəyişikliklər və əlavələr etməyi zəruri hesab edirik: 142, 196, 213-1, 213-2, 264, 269, 303, 307 və s.

Həmçinin CM-in Xüsusi hissəsində "fiziki və ya psixi pozuntusu olan şəxsə qayğı göstərmə və ya nəzarət etmə öhdəliyinin yerinə yetirməmə" və "təhlükəli olan heyvanlara nəzarət etmə öhdəliyinin yerinə yetirməmə" kimi hərəkətsizliklə törədilən əməllərin təqsirin ehtiyatsızlıq formasında maddi tərkibdə müstəqil cinayət növləri kimi kriminallaşdırılması təklif olunur.

Dissertasiya işinin "**Transmilli cinayət hüququ və xarici ölkələrin cinayət qanunvericiliyində hərəkətsizlik ilə törədilən cinayətlər**" adlı üçüncü fəsli iki paraqrafda əks olunur.

Bu fəslin "**Hərəkətsizlik ilə törədilən transmilli cinayətlərə görə məsuliyyət problemləri**" adlanan birinci paraqrafı üzrə təhlillər transmilli cinayətlərin təsnifatına uyğun olaraq "beynəlxalq

cinayətlər" və "beynəlxalq xarakterli cinayətlər" üzrə tədqiq edilmişdir.

Beynəlxalq cinayət mühakimə orqanlarının nizamnamələrində indiyədək beynəlxalaq cinayətlərin hərəkətsizlik törədilməsi və onun növləri ilə bağlı aydın təsnif edilmiş hüquqi bölgü aparılmamışdır. Transmilli cinayət hüququ üzrə ədəbiyyatda da hərəkətsizliklə törədilən cinayətlərə dair vahid yanaşma mövcud deyil. Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda cinayətkar hərəkətsizli tənzimləyən bilavasitə norma olmasa da, bu Statutda istifadə olunan "conduct (davranış)" termini təsbit olunan əməllərin həm hərəkət, həm də hərəkətsizlikdən törədilmə imkanını göstərmiş olur. Bununla belə hesab edirik ki, hərəkətsizliklə törədilən transmilli cinayətlərə dair vahid hüquqi çərçivəni təmin edəcək ümumi prinsiplərin müəyyən edilməsi zəruridir[9].

Azərbaycan Respublikasının 22 oktyabr 2024-cü il tarixli Qanunu ilə CM-in VII bölməsində təsbit olunan beynəlxalq cinayətlərin sistemində əlavə olunan 104-1-ci maddədə ekosid əməli kriminallaşdırıldı. Bununla belə, maddənin dispozisyasında "digər hərəkətlərin" ifadəsi yerinə "digər əməllər" qeyd edilsəydi, ekosidin hərəkətsizliklə törədilməsini də özündə ehtiva edər və gələcəkdə lüzumsuz şərhlərə (çox vaxtı genişləndirilmiş) ehtiyac qalmazdı.

Beynəlxalq xarakterli cinayətlərin, bir qayda olaraq, dövlətdaxili qanunvericilikdə kriminallaşdırılaraq məsuliyyətə səbəb olmasını əsas gətirərək hesab edirik ki, Azərbaycan Respublikasının cinayət qanunvericiliyində bir çox əməllərin obyektiv cəhətinin zəruri əlaməti olan hərəkətsizlyə anlayış verilməlidir və bu konkret hansı əməllərin həm hərəkət, həm də hərəkətsizliklə, yaxud yalnız hərəkətsizliklə törədilməsinə aydınlıq gətirərdi.

Üçüncü fəslin "**Xarici ölkələrin cinayət qanunvericiliyində hərəkətsizlik ilə törədilən bəzi cinayətlərin kriminallaşdırılma**

[9] Gadimov V.A. Grounds for inaction (omission) and its responsibility in the system of transnational crime, Ukraine, Juridical Scientific and Electronic Journal, № 1, 2025, p.528

**xüsusiyyətləri"** adlanan ikinci paraqrafında başlıca olaraq Türk Dövlətləri Təşkilatı (TDT), Müstəqil Dövlətlər Birliyi (MDB), Avropa İttifaqının Şərq Tərəfdaşlığı (ŞTD) və Avropa İttifaqına (Aİ) daxil olan bəzi ölkələrin cinayət qanunvericiliyində obyektiv cəhətdən hərəkətsizliklə törədilən cinayətlərin spesifik xüsusiyyətləri Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə müqayisəli təhlil edilmişdir. Xarici ölkələrin cinayət qanunvericiliyinin müsbət təcrübəsinə əsasən aşağıdakıları qeyd etməyi zəruri hesab edirik:

Türkiyə Respublikasının 2004-cü il Cəza Qanununun 83-cü maddəsində "qəsdən adam öldürmənin hərəkətsiz davranışla törədilməsi" müstəqil əməl kimi kriminallaşdırılır. Bu maddəyə əsasən, bir şəxsin yerinə yetirməyə borclu olduğu müəyyən bir hərəkəti etməməsi nəticəsində baş verən ölüm hadisəsinə görə məsuliyyət daşıdığı göstərilir. Bu hərəkətsizlik aktiv davranış (hərəkət) öhdəliliyinin yerinə yetirilməməsi nəticəsində məsuliyyət yaradır: müəyyən bir aktiv davranışı göstərmək vəzifəsinin qanunvericilik aktlarından və ya müqavilədən irəli gəlməsi, ya da əvvəlki davranışının başqalarının həyatı üçün təhlükəli bir vəziyyət yaratması ilə müşayiət olunması lazımdır.

Bu halda əsas cəza olaraq ağırlaşdırılmış ömürlük azadlıqdan məhrumetmə əvəzinə 20 ildən 25 ilədək, ömürlük azadlıqdan məhrumetmə əvəzinə isə 15 ildən 20 ilədək, digər hallarda isə 10 ildən 15 ilədək azadlıqdan məhrumetmə cəzası təyin edilə bilər. Ədəbiyyatda belə bir fikirə də rast gəlinir ki, bununla yanaşı, hakim diskresion səlahiyyətindən istifadə etməklə cəzada heç bir yüngülləşdirməyə getməyə (yəni, hərəkətlə törədilmiş qəsdən adam öldürmə cinayətinə görə nəzərdə tutulmuş cəza hədləri çərçivəsində cəza təyin edə) də bilər[10].

---

[10] Samadova Sh.T. Gadimov V.A. Features of the criminalization of certain offenses committed by omission: a comparative analysis of the criminal legislation of Azerbaijan and foreign countries, Moldova, Studia Universitatis Moldaviae, Seria-Stiinte Sociale, № 3 (183), 2025, p.125

Türk Cəza Qanunu fərqli bir mövqe sərgiləyərək, 94-cü maddə üzrə işgəncə cinayəti ilə bağlı məsuliyyəti müəyyən edərkən, bu əməlin hərəkətsizliklə törədilməsi halında, cəzada heç bir güzəşt etməməyi qeyd etmişdir. Bu tənzimləmə göstərir ki, Türk Cəza Qanununda eyni əməlin hərəkətlə və ya hərəkətsizliklə törədilməsi cinayət məsuliyyətinin və cəzanın diferensiasiyasına səbəb olur.

İspaniya Krallığının 1995-ci il Azərbaycan Respublikasının nin 10-cu maddəsində qeyd edilir ki, bu Məcəllə ilə cəzalandırılan əməllər qəsdən və ya ehtiyatsızlıqdan törədilmiş hərəkət və ya hərəkətsizliklərdir. Bununla yanaşı, İspaniya Krallığının Cinayət Məcəlləsində müsbət bir addım atılaraq, 11-ci maddədə kriminal hərəkətsizliyə anlayışı verilmiş və ona görə cinayət məsuliyyətinin əsasları aydın şəkildə izah edilmişdir. Bu maddənin məzmununda maddi tərkibli cinayətlərə görə obyektiv cəhətdən hərəkətsizliyin kriminallaşdırılma əsasları göstərilmişdir. Belə ki, nəticəyə əsaslanan (maddi tərkibli) cinayətlər yalnız o halda hərəkətsizliklə törədilmiş hesab olunur ki, şəxs xüsusi hüquqi öhdəliyini pozaraq, həmin ictimai-təhlükəli nəticənin qarşısını almadığı halda, bu nəticə, hərəkətlə törədilən ictimai-təhlükəli əməlin səbəb olduğu nəticə ilə eyni qiymətləndirilsin. Formal tərkibli cinayətlərə uyğun olaraq əgər aktiv davranış (hərəkət) göstərməsi üçün qanuni və ya müqavilə öhdəliyi olan, lakin hərəkətsizliyi edən şəxs, öz davranışı ilə ictimai münasibətə təhlükə yaratmışsa, yenə də hərəkətsizliyə görə cinayət məsuliyyətinə cəlb ediləcəkdir.

Bundan başqa İspaniya Krallığının Cinayət Məcəlləsində hərəkətsizliklə törədilən bəzi əməllərə görə məsuliyyət normaları maraq doğurur. Belə ki, bu Məcəllənin 195-ci maddəsində göstərilir ki, qanunla müəyyən edilmiş qaydada hər bir kəs ehtiyac olduğu halda, başqasına kömək etməli və ya kömək istəməlidir, bir şərtlə ki, yardımın göstərilməsi şəxsi təhlükəyə səbəb olmasın. Digər tərəfdən, bu Məcəlləsinin 229-cu maddəsinə görə himayəsində olan şəxslərə baxmama cinayətinə görə valideynlər və ya öhdəliyi olan digər

şəxslər müvafiq öhdəliklərinin yerinə yetirmədikdə, cinayət məsuliyyətinə cəlb olunurlar.

Moldova Respublikasının 2002-ci il CM-in Xüsusi hissəsində hərəkətsizliklə törədilən bir çox əməllər kriminallaşdırılmışdır. Lakin bu Məcəllənin tədqiqat mövzusu ilə bağlı əsas diqqət çəkən məsələsi Ümumi hissədə hüquqi şəxslərə münasibətdə kriminal hərəkətsizlik kateqoriyası ilə bağlı vacib bir normanın olmasıdır. Belə ki, Moldova Respublikasının CM-in "Cinayətin subyekti" adlı 21-ci maddəsinin 3-cü bəndində hüquqi şəxslərin cinayət məsuliyyətinin subyekti olma əsasları göstərilmişdir. Bu bənndə qeyd edilir ki, hüquqi şəxs müəyyən fəaliyyətin yerinə yetirilməsi ilə bağlı öhdəlikləri və ya qadağaları müəyyən edən birbaşa qanun müddəalarına əməl etməməyə və ya onları lazımıca yerinə yetirməməyə görə cinayət məsuliyyətinin subyekti hesab edilir.

Dissertasiya işinin **"Cinayətkar hərəkətsizliyin kriminoloji xüsusiyyətləri"** adlı dördüncü fəslində qeyd edilmişdir ki, cinayətkar hərəkətsizlik ayrıca davranış forması kimi müxtəlif hüquq sistemlərində fərqli şəkildə qiymətləndirilir və xüsusilə cinayət hüququ sahəsində onun tənzimlənməsi bir çox hallarda müxtəlif hüquqi adətlərə, nəzəri yanaşmalara və cəmiyyətin maddi həyat şəraitinə əsaslanaraq formalaşır.

Kriminologiyada hərəkətsizliklə törədilən cinayətlərin profilaktikası ilə bağlı tədbirlər mühüm əhəmiyyət kəsb edir. Çünki hərəkətsizliklə törədilən əməllərin xüsusiyyətləri, yüksək latentliyi bir çox hallarda hüquq-mühafizə orqanlarının diqqətindən kənarda qalmasına səbəb olur. Belə ki, cinayət əməlinin hüquq-mühafizə orqanları tərəfindən vaxtında aşkar edilməməsi, habelə törədilmiş əməlin sübuta yetirilmə imkanının itirilməsi, cinayət nəticəsində baş verən ictimai təhlükəli nəticələr və buna səbəb olan hərəkərsizlik arasında səbəbli əlaqənin aşkar edilməsi bu cinayətlərin latentliyini daha da artırır. Odur ki, şəxsin hərəkətsizlik ilə törətdiyi cinayətdə öhdəliyini dərk etməsi olduqca vacibdir. Müəlliflərdən prof. İ.M.Rəhimov bununla bağlı qeyd edir ki, *"bir çox hallarda cinayət*

*törədən şəxslər bu əməlin törədilmə əsnasında öz hərəkətlərinin nəticələrini düşünə bilmirlər[11]".*

Hərəkətsizliliə bağlı digər məqam ondan ibarətdir ki, latent cinayətkarlığın kriminoloji təsnifatında bu cinayətlərin daha çox təbii latentlik qrupuna (bu və ya digər səbəbdən hüquq mühafizə orqanlarına məlum olmayan cinayətlər) daxil edilə bilər: baş vermiş cinayət haqqında vaxtında məlumat verilməməsi; cinayəti törətmiş şəxs və ya şəxslərdən qorxaraq məlumat verməməsi və s.

Hərəkətsizliklə törədilən cinayətlərin kriminoloji xüsusiyyətlərinin özünəməxsusluğu ondan ibarətdir ki, bu cinayətlər əsasən müvafiq hüquqi əsasla müəyyən edilən öhdəliklərə etinasız, laqeyd münasibətdən irəli gəlir. Hərəkətsizliklə cinayət törədən şəxslərin kriminoloji xüsusiyyətlərini təhlil etdikdə, bu şəxslərin çox zaman həmin davranışı edərkən onun nəticələri barədə düşünmək iqtidarında olmadıqları məlum olur. Məhz bu səbəbdən kriminal hərəkətsizliyə hüquqi qiymətin verilməsi və ona görə məsuliyyət əsaslarının müəyyən edilməsi bəzi xarici ölkələrin cinayət qanunvericiliyində bu və digər dərəcədə tənzimlənmişdir.

Qeyd olunmalıdır ki, cinayətkarlığın statistik göstəriciləri sırasında cinayətkar hərəkətsizliyin təhlili müəyyən metodoloji çətinliklərlə müşayiət olunur. Statistik məlumatların toplanması və sistemləşdirilməsi zamanı hərəkətsizliklə törədilən cinayətlərin ayrıca kateqoriya kimi fərqləndirilməsi hər zaman mümkün olmur. Bu isə həm kriminoloji tədqiqatların dəqiqliyinə təsir edir, həm də profilaktik tədbirlərin hazırlanmasında müəyyən boşluqlar yaradır.

Beləliklə, cinayətkar hərəkətsizlik yalnız cinayət hüququnun deyil, eyni zamanda kriminologiyanın da kompleks və çoxşaxəli

---

[11] Rəhimov, İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, 2014. s.207

tədqiqat obyektidir. Onun dərin və sistemli şəkildə öyrənilməsi cinayətkarlığın səbəblərinin daha düzgün anlaşılmasına, effektiv profilaktika mexanizmlərinin hazırlanmasına və hüquqi tənzimləmənin təkmilləşdirilməsinə mühüm töhfə verə bilər.

Dissertasiya işinin "Nəticə" hissəsində müəllif tərəfindən ayrı-ayrı anlayışlar, fəsillər və paraqraflar üzrə aparılmış tədqiqatların elmi-nəzəri ümumiləşdirmələri, praktiki əhəmiyyət daşıyan tövsiyələr, habelə Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyin təkmilləşdirilməsinə dair konkret təkliflər ardıcıl və sistemli şəkildə təqdim olunur.

Əlavələrdə CM-də cəmi əsas tərkiblər üzrə obyektiv cəhətdən yalnız hərəkət ilə, yalnız hərəkətsizlik ilə, həm hərəkət, həm də hərəkətsizlik ilə törədilən cinayətlərin sayı üzrə statistik göstəricilər təhlil edilir.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Gadimov V.A. Analysis of the compositions on "failure to assist" in the Special Part of the Criminal Code // "Hüquq elminin və təhsilinin müasir inkişaf tendensiyaları beynəlxalq elmi konfransı // Tərcümə və Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2023, s.174-178
2. Qədimov V.A. Hərəkətsizliklə törədilən cinayətlərin sistemində hərbi xidmət əleyhinə olan cinayətlərin tövsifi xüsusiyyətləri. Bakı Universitetinin Xəbərləri: Sosial-siyasi Elmlər jurnalı, № 2, Bakı, 2024, s.76-92
3. Qədimov V.A. Cinayət qanunvericiliyində "yayınma" ilə əhatə olunan hərəkətsizlik cinayətkar davranış kimi. Polis Akademiyasının Elmi Xəbərləri elmi hüquq jurnalı, № 2, Bakı, 2024, s.24-30
4. Qədimov V.A. Cinayət qanunvericiliyində "kömək göstərməmə" passiv davranışın təzahürü kimi. Bakı, Qanun № 3 (353), 2024, s.114-119
5. Qədimov V.A. Obyektiv cəhətin zəruri əlaməti kimi hərkətsizlik və onun mahiyyəti. Bakı, Qanun № 8, 2024, s.69- 74

6. Gadimov V.A. The historical development of criminal omission: from past to present // Azerbaijani Lawyer, 2025, №2 (26), s.53-58

7. Gadimov V.A. Grounds for inaction (omission) and its responsibility in the system of transnational crime, Ukraine, Juridical Scientific and Electronic Journal, № 1, 2025, p.526-531

8. Gadimov V.A. Samadova Sh.T. Features of the criminalization of certain offenses committed by omission: a comparative analysis of the criminal legislation of Azerbaijan and foreign countries, Moldova, Studia Universitatis Moldaviae, Seria-Stiinte Sociale, № 3 (183), 2025, p.121-127

9. Gadimov V.A. Criminological characteristics of criminal omission. Baku, Journal of International Law and Integration Issues, № 1, 2025, s.70-76

10. Gadimov V.A. Criminal omission within the framework of the legal institutions: preparation for a crime, criminal attempt, and voluntary abandonment of criminal intent, Bakı, Qanun № 6 (368), 2025, s.82-89

11. Gadimov V.A. The issue of failure to report a crime in the context of criminal-legal responsibility for inaction // The proceedings of 7th International scientific and practical conference "Scientific achievements of contemporary society", Cognum Publishing House, London, 2025, p.515-523

12. Gadimov V.A. The legal basis of liability for criminal omission // The proceedings of 11th International scientific and practical conference "Scientific achievements of contemporary society", Cognum Publishing House, London, 2025, p.797-804

13. Gadimov. V.A. The history of criminal-legal development of publicly dangerous acts committed by omission from an objective aspect // "Azərbaycanda demokratik respublika modelinin təşəkkül tarixi: dövlət rəmzlərinin təsis edilməsindən dövlət suverenliyinin tam əldə edilməsinə aparan yol" adlı respublika elmi-praktik konfransı, Bakı, 2025, s.122-126

Dissertasiyanın müdafiəsi 05 iyun 2026-cı il tarixində saat 11:00 -da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.04.2026

Kağızın formatı: A5 – 148 x 210

Həcm: 49.495

Tiraj: 100